# Prezident Kuboku uğrunda çövkən milli oyununun yekunları sevindiricidir

***Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, nazirliyin əmrinə əsasən ötən il 21-24 dekabrda Prezident Kuboku uğrunda çövkən milli oyunu Respublika Atçılıq Turizm Mərkəzində keçirilmişdir. Bu tədbirdə respublikanın 12 şəhər və rayon (Şəki, Yevlax, Ağcabədi, Ağdam, Ağstafa, Balakən, İsmayıllı, Qax, Qazax, Qəbələ, Oğuz, Zaqatala) komandaları iştirak etmişlər.***

Prezident Kuboku uğrunda çövkən milli oyununun 1/8 final mərhələsində Balakən rayon komandası Yevlax komandasını 2:0, Oğuz komandası Ağcabədi komandasını 3:2, Qax komandası İsmayıllı komandasını 2:1, Zaqatala komandası isə Qəbələ komandasını 2:1 hesabı ilə məğlub etmişdir.

1/4 final mərhələsində Ağstafa komandası Balakən komandasını 1:0, Qazax komandası Oğuz komandasını 1:0, Ağdam komandası Qax komandasını 1:0, Şəki komandası isə Zaqatala komandasını 5:0 hesabı ilə məğlub etmişdir.

Nəhayət, 1/2 final mərhələsində Ağstafa komandası Qazax komandasına 3:0 hesabı ilə, Şəki komandası Ağdam komandasına 2:0 hesabı ilə qalib gəlmişdir. III yer uğrunda keçirilən oyunda Ağdam komandası 1:0 hesabı ilə Qazax komandasına qalib gəlmişdir. Şəki və Ağstafa rayon komandaları arasında I yer uğrunda keçirilən oyunda şəkililər 2:1 hesabı ilə qalib olmuşlar. Beləliklə, Prezident Kuboku uğrunda çövkən milli oyununda 1-ci yeri Şəki, 2-ci yeri Ağstafa, 3-cü yeri Ağdam, 4-cü yeri isə Qazax komandası tutmuşdur.

Prezident Kuboku uğrunda çövkən milli oyununun 1/8 final mərhələsində məğlub olmuş 4 komanda üçün həvəsləndirici papaq oyunu keçirilmişdir. Bu oyunun 1-ci yarımfinalında Qəbələ komandası Yevlax komandasına 2:0 hesabı ilə, 2-ci yarımfinal oyununda Ağcabədi komandası İsmayıllı komandasına 1:0 hesabı ilə qalib gəlmişdir. III yer uğrunda keçirilən oyunda Yevlax komandası 1:0 hesabı ilə İsmayıllı komandasına qalib gəlmişdir. Ağcabədi və Qəbələ komandaları arasında I yer uğrunda keçirilən oyunda ağcabədililər 5:4 hesabı ilə qalib gəlmişlər. Beləliklə papaq milli oyununda 1-ci yeri Ağcabədi, 2-ci yeri Qəbələ, 3-cü yeri Yevlax, 4-cü yeri isə İsmayıllı komandası tutmuşdur.

Prezident Kuboku uğrunda çövkən milli oyununun 1/4 final mərhələsində məğlub komandalar üçün həvəsləndirici sür papaq oyunu keçirilmişdir. Bu oyunun 1-ci yarımfinalında Zaqatala komandası Oğuz komandasına 2:1 hesabı ilə, 2-ci yarımfinal oyununda Balakən komandası Qax komandasına 8:0 hesabı ilə qalib gəlmişdir. III yer uğrunda keçirilən oyunda Qax rayon komandası 3:2 hesabı ilə Oğuz komandasına qalib gəlmişdir. Balakən və Zaqatala rayon komandaları arasında I yer uğrunda keçirilən oyunda balakənlilər 5:0 hesabı ilə qalib gəlmişlər. Beləliklə sür papaq milli oyununda 1-ci yeri Balakən, 2-ci yeri Zaqatala, 3-cü yeri Qax, 4-cü yeri isə Oğuz komandası tutmuşdur.

Oyunlarda iştirak edən 12 komandanın hər birinə Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları və pul mükafatları, eyni zamanda Şəki Şəhər İcra Hakimiyyətinin qiymətli hədiyyələri təqdim olunmuşdur. Şəki komandasına isə həm də yarışın baş mükafatı - Prezident Kuboku təqdim edilmişdir. Oyunun şərtlərinə görə Kubok növbəti oyunlara qədər qalib komanda kimi Şəki Rayon Mədəniyyət və Turizm Şöbəsində saxlanılacaq.

Qeyd etmək lazımdır ki, keçən ilə nisbətən bu il tədbir iştirakçılarının hazırlığı, onların geyimi və nümayiş etdirdikləri oyun ustalıqları daha yüksək olmuşdur.

Bu tədbiri keçirməyə, atüstü milli oyunların təbliği, qədim oyun ənənələrinin bərpası, gənc nəsildə bu sahəyə marağın artırılması istiqamətində aparılan işlərə böyük dəstəyə görə tədbir iştirakçıları Mədəniyyət və Turizm Nazirliyinə və şəxsən nazir Ə.Qarayevə minnətdarlıqlarını bildirmişlər. Həmçinin iştirakçılar bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, gələcəkdə ənənəvi xarakter almasını və beynəlxalq səviyyədə keçirilməsi arzusunda olduqlarını bildirmişlər.

Prezident Kuboku uğrunda çövkən milli oyununun keçirilməsi ilə əlaqədar Respublika Atçılıq Turizm Mərkəzinin yerləşdiyi Daşüz kəndinin məktəbliləri arasında rəsm müsabiqəsi elan edilmişdir. Şəki İncəsənət Məktəbinin müəllimlərinin iştirakı ilə müsabiqəyə təqdim olunan rəsmlərdən 10 ən yaxşısı seçilərək, tədbir iştirakçılarına və qonaqlara nümayiş etdirilmişdir. Rəsmlərin müəllifləri Respublika Atçılıq Turizm Mərkəzi və Şəki İncəsənət Məktəbi tərəfindən xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

Tədbir zamanı həmçinin iki fotosərgi təşkil edilmişdir. Sərgilərdən biri "Atçılıq aləminin müxtəlifliyi" adı altında təşkil olunmuş və burda otuz fotoşəkil nümayiş etdirilmişdir. Təqdim olunan şəkillərdə dünyanın müxtəlif cinsli atları, onların yetişdirilməsi, milli oyunlarda, idmanda, məişətdə istifadəsi əks edilmişdir.

Digər fotosərginin şərti adı "Şəkidə atçılıq turizminin imkanları" idi. Burada təqdim olunan fotoşəkillərdə gələn turistlərin cəlb edilməsi məqsədi ilə atüstü turist marşrutlarının keçdiyi Şəkinin mənzərəli yerləri göstərilmişdir.

*M. MÜKƏRRƏMOĞLU,*
*"Xalq qəzeti"*